# I Avropa Oyunlarının Bakıda keçirilməsinin ölkəmiz üçün əhəmiyyəti

## Tədbir Azərbaycana təkcə keçirildiyi müddətdə deyil, sonrakı dövrlərdə də böyük fayda gətirəcək




**I Avropa Oyunlarının Azərbaycanda keçiriləcəyi vaxta çox az günlər qalıb. Artıq bütün ölkədə bu mötəbər tədbirə ciddi şəkildə hazırlıq işləri gedir. Nəzərə almaq lazımdır ki, Azərbaycan hazırda bütün dünyanın diqqət mərkəzindədir. Ölkəmizə etibar edilmiş I Avropa Oyunlarının keçirilməsi tarixi bir idman hadisəsi olmaqla yanaşı, respublikamızın ictimai-siyasi, humanitar, sosial-iqtisadi həyatı haqqında real gerçəklər barədə dünya ictimaiyyətinə məlumat vermək baxımından da mühüm əhəmiyyət kəsb edir. Bu mənada ilk Avropa Oyunlarının Avropa ölkələri və Azərbaycan üçün hansı perspektivləri bəxş etməsini xüsusi vurğulamaq lazımdır.**

Maraqlıdır ki, bu Oyunlar Azərbaycan və Avropa, ümumiyyətlə, dünyamız üçün hansı əhəmiyyəti kəsb edir?

**Bakı şəhərindəki 44 saylı orta məktəbin VII sinif şagirdi Aydın Əliyev** düşünür ki, bu Oyunlar onun dünyagörüşü və idman marağının daha da möhkəmləndirilməsi baxımından yeni bir səhifə açacaq: "Mən heç vaxt böyük bir idman yarışını canlı seyr etməmişəm. Bu yarışları canlı izləməyi isə səbirsizliklə gözləyirəm. Çünki mən idmanı çox sevirəm. Ölkəmizin isə bu cür yarışa ev sahibliyi etməsi bir vətəndaş olaraq məni ilk eşitdiyim andan çox fərəhləndirir. Bu Oyunlar bizim kimi idmanı sevən məktəblilərə böyük stimul verəcək".

**Azərbaycan Gənclərinin Avropaya İnteqrasiyası Təşkilatının üzvü, gənc fəal Lalə Babayeva** isə deyir ki, Azərbaycan artıq 24 ildir öz müstəqillik dövrünü yaşayır: "Lakin bu qədər az müddətdə müstəqilliyimizə baxmayaraq, Azərbaycan artıq beynəlxalq nüfuza malikdir. Çox sevindirici hissdir ki, Azərbaycan artıq bir çox nüfuzlu beynəlxalq yarışlara ev sahibliyi edib və edir. Bakı 2015 Avropa Oyunlarının ölkəmizdə keçirilməsi böyük bir tarixi hadisədir. Hazırda ölkədə böyük hazırlıq işləri görülür. Bir çox olimpiya kompleksləri inşa edilir, şəhərimizdə abadlıq işləri aparılır və gündən-günə ölkəmizdə qonaqların sayı çoxalır. Bu idman yarışının keçirilməsi ilə Azərbaycan dünya arenasında bir daha özünü təsdiqləmiş olacaq. Eyni zamanda, bu idman yarışında dünyanın müxtəlif ölkələrindən olan məşhur idmançılar yarışacaqlar, həm də Azərbaycana böyük turist axını olacaq. Bu da bizləri qürurlandırır. Bu idman bayramı təkcə Azərbaycanda deyil, eyni zamanda, canlı yayımla bir çox ölkələrin televiziya kanallarında yayımlanacaq. O gün hər kəs Azərbaycanın bu möhtəşəm idman bayramına yüksək səviyyədə ev sahibliyi etməsinin şahidi olacaq. Bu da Azərbaycanın beynəlxalq mühitdə daha çox tanınmasına səbəb olacaq".

### "AZƏRBAYCAN İDMANÇILARI BU YARIŞA HAZIRLIQ İŞLƏRİNİ DAVAM ETDİRİR"

**Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov** bildirib ki, I Avropa Oyunlarının keçirilməsi böyük tarixi hadisədir: "Bu böyük idman bayramının Azərbaycanda keçirilməsinə Avropa ölkələrinin Olimpiya Komitələrinin mütləq əksəriyyəti səs verib".

O bildirib ki, bu Oyunlarda 20 idman növündə 6 minə yaxın idmançının iştirakı yarışın mötəbərliyinin əyani göstəricisidir: "Digər tərəfdən isə 20 idman növünün 11-i Rio de Janeyroda 2016-cı ildə keçiriləcək Olimpiya Oyunlarına ya lisenziya, ya da lisenziya xalını verir. Bu bir daha yarışın mahiyyətini və böyüklüyünü göstərir".

R.Abbasov əlavə edib ki, konkret olaraq ayrı-ayrı idman növlərinə gəldikdə, məsələn, atletika idman növü 15 ölkənin idmançısı ilə təmsil olunacaq: "Bu atletika oyunlarında normativlər mövcuddur və o normativləri yerinə yetirən idmançı Rio de Janeyroda keçiriləcək Olimpiadaya vəsiqə qazanacaq. Bundan vacib nə isə ola bilərmi?"

O qeyd edib ki, milyonlarla tamaşaçının izləyəcəyi bu idman bayramı idman tarixində ən yaddaqalan hadisələrdən biri olacaq: "O cümlədən də Azərbaycan idmançıları bu yarışa hazırlıq işlərini davam etdirir və Azərbaycanın dövlət himninin səslənməsi, bayrağının yüksəldilməsi üçün əllərindən gələni edəcəklər".

### "I AVROPA OYUNLARI OBYEKTİV MƏLUMATLANDIRMA BAXIMINDAN DA BÖYÜK ƏHƏMİYYƏT KƏSB EDİR"

**Milli Məclis sədrinin müavini Bahar Muradova** görə, Azərbaycan həqiqətlərinin dünyada eşidilməsi, ölkəmizin işğala məruz qalması, ədalətsiz münasibətlə üzləşməsini dünya ictimaiyyətinə çatdırmağın ən yaxşı yollarından biri də belə beynəlxalq yarışların təşkilidir: "Mən dünyada ikinci amil tanımıram ki, eyni ölkə ilə bağlı bütün dünya ictimaiyyəti maraqlansın. Bunlar mühüm beynəlxalq tədbirlər, Olimpiya Oyunları, indi isə Avropa Oyunlarıdır. Belə hallarda siyasi dünyagörüşündən, əqidəsindən, irqi mənsubiyyətindən asılı olmayaraq, insanlar yarışın keçiriləcəyi ölkə və şəhərlə maraqlanır, bu idman yarışları vasitəsilə həmin ölkə haqqında məlumat alırlar. Əlbəttə ki, məlumat alarkən Azərbaycanın qədim tarixi, bu gün əldə etdiyi uğurlar və üzləşdiyi problemlər də diqqətə çatdırılır. Bu nöqteyi-nəzərdən Dağlıq Qarabağ probleminin mahiyyəti, məzmunu, indiki durumu barədə dünya ictimaiyyətinə kütləvi və operativ informasiyanın çatdırılmasının mühüm yollarından biri də bu cür tədbirlərdir. Bu mənada düşünürəm ki, Azərbaycan ilə maraqlanan insanların qarşısına internet resurslarında Dağlıq Qarabağ problemi haqqında informasiyalar da çıxacaq. Bu mənada da I Avropa Oyunları obyektiv məlumatlandırma baxımından da böyük əhəmiyyət kəsb edir".

### "DÜNYADA ÇOXLU SAYDA İNSAN BU OYUNLARA TAMAŞA EDƏCƏK"

**Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki** deyib ki, "Bakı-2015" ölkəmizin əməyi və səyləri sayəsində baş tutacaq: "Azərbaycan rəhbərliyi ilə işləmək olduqca məmnunluq doğurdu. Sizin peşəkarlığınız və diqqətiniz bizi hər zaman təsirləndirdi".

**ABŞ dövlət katibinin Avropa və Asiya məsələləri üzrə köməkçisinin sabiq müavini, "Summit İnternational Advisors" təşkilatının icraçı direktoru Deyvid Merkel** deyib ki, I Avropa Oyunları Azərbaycana yalnız keçirildiyi müddətdə deyil, sonrakı dövrlərdə də böyük faydalar gətirəcək. D.Merkel bildirib ki, Bakı İlk Avropa Oyunlarının keçirilməsi üçün çox əlverişli şəhərdir: "Bakı, ümumiyyətlə, gözəl şəhərdir, buraya bir dəfə gələn mütləq yenidən gəlmək istəyir. İlk Avropa Oyunlarında da Bakıya müxtəlif ölkələrdən çoxlu sayda idmançılar, onların azarkeşləri gələcək, o cümlədən dünyada çoxlu sayda insanlar bu Oyunlara tamaşa edəcək".

D.Merkel vurğulayıb ki, bu insanlar Azərbaycanın gözəlliklərini görəcəklər və öz ailələri ilə bu ölkəyə təkrar gəlmək istəyəcəklər: "Bu isə yalnız indiki zamanda deyil, gələcək zamanda da Azərbaycan iqtisadiyyatının, xüsusən də turizm sektorunun inkişafına böyük imkan yaradacaq".

**Türkiyənin sabiq prezidenti Abdulla Gül** I Avropa Oyunlarının əhəmiyyətindən danışaraq, qeyd edib ki, dünya bu möhtəşəm tədbir vasitəsilə Azərbaycanı daha yaxından tanıyacaq: "I Avropa Oyunlarının Bakıda keçirilməsi Azərbaycan üçün çox böyük nailiyyətdir, uğurdur. Bu Oyunlar Bakını təkcə Avropaya deyil, bütün dünyaya tanıdacaq. Belə bir mötəbər tədbirin ilk dəfə Azərbaycanda keçirilməsi qürur duyulacaq bir şeydir. Eyni zamanda, buraya qoyulan sərmayə, tikilən idman kompleksləri də, əlbəttə ki, Bakı gənclərinə, Azərbaycan gənclərinə qalacaq".



### "OYUNLARIN TƏŞKİLİNDƏN UDAN TƏRƏF AZƏRBAYCAN VƏ ÖLKƏ İQTİSADİYYATIDIR"

"Avropa Oyunlarını iqtisadi baxımdan qiymətləndirdikdə yalnız Oyunlar keçirilən zaman əldə edilən gəlirləri müəyyənləşdirmək doğru deyil" deyən **iqtisadçı ekspert Vüqar Bayramov** hesab edir ki, I Avropa Oyunları strateji layihə olduğu üçün onun gəlirləri təkcə qısa deyil, eyni zamanda uzunmüddətli dövrü əhatə edəcək.

V.Bayramov qeyd edib ki, Avropa Oyunları keçirildiyi müddətdə cari gəlirlərin əldə edilməsinə imkan verməklə yanaşı, eyni zamanda, Oyunlar başa çatdıqdan sonra ölkə iqtisadiyyatına əlavə vəsaitin daxil olmasına imkan yaradacaq: "Oyunlar keçirilən müddətdə kiçik və orta sahibkarlar da daxil olmaqla ölkə iqtisadiyyatı bu tədbirlərdən faydalana biləcək. Bu Oyunlar iqtisadiyyatın müxtəlif sektorları üçün yeni maliyyə imkanları yaradacaq. Bu isə ölkə sahibkarlarının qısa və uzunmüddətli dövrdə Oyunların keçirilməsindən faydalanmasına şərait yaradacaq".

V.Bayramov I Avropa Oyunlarının iqtisadi əhəmiyyətini hesablayan zaman cari və strateji gəlirləri bir-birindən fərqləndirməyi vacib sayır: "Avropa Oyunları keçirilən zaman ölkəyə xeyli sayda turistin gəlməsi nəzərdə tutulur. Beynəlxalq standartlara görə, Azərbaycanda olan hər bir turistin həftəlik orta xərcləməsi 1000 dollardır. Avropa Oyunlarının iki həftə davam etdiyini nəzərə alsaq, bu, o deməkdir ki, Oyunlar keçirilən müddətdə hər bir turist ölkə iqtisadiyyatına 2000 dollar sərmayə yönəldəcək. İkincisi, turistlərin Azərbaycanda olmasından xüsusilə də xidmət, nəqliyyat, bank sektoru gəlir əldə etmək imkanı qazanacaq. Digər tərəfdən, cari gəlirlərə biletlərin satılması, yayım və reklam vasitəsilə əldə olunan vəsait də daxildir. Nəzərə alsaq ki, Oyunlar müxtəlif xarici kanallar vasitəsilə yayımlanacaq, praktik olaraq bu da həmin Oyunların yayımlanmasından gəlir əldə etməyə şərait yaradacaq. Yerli və xarici şirkətlər Avropa Oyunları zamanı özləri reklam kampaniyalarının aparılmasında maraqlı olacaq. Bu, artıq müşahidə olunmaqdadır və rəsmi tərəfdaşlar da var. Bu isə şirkətlərin reklam gəlirlərinin bir qisminin məhz bu Oyunlara cəlb edilməsinə imkan yaradacaq. Eyni zamanda, ölkəyə gələn turistlərin xarici valyutanı milli valyutaya çevirməsi manata tələbin artmasına və xarici valyuta təklifinin çoxalmasına səbəb olacaq. Bu, Mərkəzi Bankın intervensiya xərclərinin azaldılması baxımından əhəmiyyətlidir".

İqtisadçı alim deyib ki, Avropa Oyunları Azərbaycanın tanıdılması hesabına ölkəyə xarici investisiyanın cəlb edilməsinə də təsir göstərəcək. Ölkəmizdə iqtisadiyyatın diversifikasiyası vacib hədəflərdən biridir. İqtisadiyyatın şaxələnməsi eyni zamanda qeyri-neft sektoruna xarici sərmayələrin cəlb edilməsini nəzərdə tutur. Belə beynəlxalq yarışlar, ölkəmizin infrastrukturunu, iqtisadi potensialını tanıtmaq üçün olduqca vacibdir. Deməli, sözügedən layihə Azərbaycan üçün qısa və uzunmüddətli dövrdə sərmayələrin cəlb edilməsi baxımından əhəmiyyətlidir. Mövcud infrastrukturun yaxşılaşması Azərbaycanın rəqabətqabiliyyətliliyinin daha da güclənməsinə və bu aspektdən xarici investisiyaların cəlbinə şərait yaradacaq.

İqtisadçı alimə görə, cari və strateji gəlirləri nəzərə alsaq, Avropa Oyunları iqtisadi baxımdan rentabelli bir layihədir: "Sözügedən Oyunların keçirilməsi Azərbaycan üçün, sadəcə, geosiyasi və beynəlxalq mötəbər yarışa ev sahiblik etmək baxımından deyil, eyni zamanda, ölkə iqtisadiyyatının dəstəklənməsi baxımından vacibdir. Deməli, Oyunların təşkilindən udan tərəf Azərbaycan və ölkə iqtisadiyyatıdır".

**Fidan Afər, AZADİNFORM
İnformasiya Agentliyinin müxbiri**

**Yazı Milli Olimpiya Komitəsinin və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür**